*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 9, 2025*
*Səh. 100-104*

https://doi.org/10.62837/2025.9.100

***Dosent*** **QADAŞOVA AYBƏNIZ AZIK qızı**
**Azərbaycan Tibb Universiteti**
**Xarici Dillər kafedrası**
**ORCİD: 0009-0003-1033-1620**
**agadashova@amu.edu.az**

# DİLÇİLİKDƏ İKİDİLLİLİYİN ETNOQRAF PROSESLƏRİNİN PSİXOLİNQVİSTİK ƏSASLARI

**Açar sözlər:** *psixolinqvistika, danışığın qavranılması, düşüncə və dil, nitq pozuntuları*

Psixolinqvistika dilçilik və psixologiya elmlərinin qovşağında formalaşmış elmdir. O insan beynində dilin qavranılması, yadda saxlanılması, istehsal və istifadə mexanizmlərini tədqiq edir. Bu elm sahəsiikidilliliyin inkaşafında əsas rol oynayır. Psixolinqvistika həm də danışığın yaradılması, dilin öyrənilməsi və yaddaşla əlaqəsi kimi prosesləri izah edir. Eyni zamanda dilin inkişaf mərhələləri, düşüncə və dilin inkişaf mərhələləri, düşüncə və dilin qarşılıqlı təsiri, həmçinin beyin zədələnmələri nəticəsində yaranan nitq pozuntuları da psixolinqvistik baxımdan öyrənilir. Bu istiqamətdə aparılan dilin inkişaf mərhələləri psixolinqvistik baxımdan öyrənilir. Bu istiqamətdə aparılan tədqiqatlar dilin öyrənilməsi, nitq terapiyası və süni intellekt texnologiyalarında mühüm əhəmiyyət daşıyır.Müasir dövrdə psixologiya və dilçilik arasında daha sıx əlaqə mövcuddur. Psixolinqvistika nitq davranışını psixoloq və linqvistlərin kompleks şəkildə öyrənilmələrini nəzərdə tutan elm sahəsidir. Psixolinqvistika özünün müstəqil tədqiqat predmetinə malikdir. Psixolinqvistikanı daha çox psixologiya özününkü hesab edir. İkidilliliyin insan təfəkkürünün inkişafında psixolinqvistika əsas yer tutur.

Təfəkkür prosesləri və dil məsələləri ilə bağlı dilin strukturunun linqvopsixoloji analizini aparan müəllim dilin xaotikliyi və sistem anlayışı, forma və nitq vəhdətinin kökləri, dilin inkişaf tendensiyaları, dilin linqvopsixoloji mahiyyəti məsələlərinə öz baxış bucağından işıq salmaqla yeni münasibət bildirməyə çalışır. Nitq prosesində psixolinqvistik amillər ikidilli insanlara daha çox şamil olunur. Dilçilikdə psixolinqvistik aspektlər mövzusu dilin insan psixologiyası ilə qarşılıqlı əlaqəsini, yəni dilin qavranılması, öyrəniolməsi və istifadəsi proseslərinin psixoloji mexanizmlərini araşdırır. Ümumiyyətlə, psixolinqvistika – psixologiya və dilçilik elmlərinin kəsişməsində yaranmış elmdir.

O, insan beynində dilin necə formalaşdığını, yaddaşda necə saxlanıldığını, danışıq zamanı necə istifadə edildiyini və dinləyərkən necə anlaşıldığını tədqiq edir. Dilçilər dilin koqnitiv inkişafda əlaqəsini qeyd edirlər. İkidilli insanlarda sosial qarşılıqlı əlaqənin və düşüncənin dilin inkişafında rolu əhəmiyyətli şəkildə özünü

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 9, 2025*
*Səh. 100-104*

göstərir. Dilçilər dilin bioloji əsaslara söykənən instinkt olduğunu müdafiə edir. Alimlər qeyd edir ki, insanların dünyanı qavrama tərzi onların danışdığı dildən asılıdır (1 səh. 3-4). Elmin, texnikanın sosial həyatın sürətlə inkişafı müasir dövrdə yetişməkdə olan gənc nəslin təfəkkürünün fəaliyyətinə daha ciddi tələblər verir. Bu da gənclərdə ikidilliliyin inkişafına daha çox təsir göstərir. Onlarda hər iki dildə mühakimələr yürütmək fəaliyyətlərini, elmi mübahisə aparmaq bacarığı inkişaf etdirir. Tələbələrdə elmi biliklərin müstəqil yaradıcılıqla düşünmə qabiliyyətini, elmi mübahisə aparmaq qabiliyyətini formalaşdırır. Psixolinqvistikanın başqa elmlərlə əlaqəsinə nəzər salsaqburada insan psixikasının və davranışın əsas rol oynadığını qeyd edə bilərik. Müasir dövrdə psixologiya nitqin və dilin inkişafında necə rol oynadığını danılmaz bir faktordur. Mühüm bir sahə olan psixolinqvistika psixologiyada əsas yer tutur.

Psixolinqvistikanın öyrənilməsi insan biologiyası, onun ali sinir sisteminin quruluşu və fəaliyyəti haqqında biliklərə yiyələnməyi tələb edir. İngilis – Azərbaycan dilli insanlarda təfəkkürün necə inkişaf etdiyi, hər iki dildə sərbəst daşımalarının səbəbi də psixolinqvistikada öz əksini tapmışdır. Psixologiya cəmiyyətin tarixi, dil tarixi və mədəniyyəti ilə sıx bağlıdır. Psixologiya nitqin yaranması, anlaşılması və formalaşmasının gedişi zamanı öz diqqətini daha çox şüurun psixi funksiyalarının xüsusiyyətlərinə yönəlir. Bu da psixolinqvistik sahədə əks olunur. Psixolinqvistika özü psixologiya və linqvistikanın (dilçiliyin) vəhdətindən yaranmış elm sahəsidir. Linqvistika nitqin təşkilini dil qanunlarına uyğun olaraq öyrənir (2 səh. 16-17). Psixolinqvistika isə nitqin yaranması prosesinə nitqin qavranmasına və doğma dilə xarici dilin necə dərk olunmasına müraciət edir. Psixolinqvistika nitq öncə psixoloji fonemen kimi öyrənən dilçilik sahəsidir. Psixolinqvistikaya görə dil danışanın və dinləyənin, yazanın və oxuyanın daxili dünyası qədər mövcud bir faktordur. Bu sahə "ölü" dilləri öyrənir, çünki ba zaman qədim yazılarla həmin dilləri yaradan cəmiyyətin psixi dünyası gəlib çatmamışdır.

Linqvistika və nitqin psixologiyası ilə müqayisədə psixolinqvistika özünün müstəqil tədqiqat predmetinə malikdir. Nitq psixologiyanın predmeti, psixolinqvistika obyekti və predmeti ilə üst-üstə düşür. Ona görə də bu iki fənni bir-biri ilə qarışdırırlar. Bu cür eyniləşdirməyə əsas olsa da, hər halda bir-iki termini bir-birindən fərqləndirən cəhətlər də mövcuddur. Psixolinqvistika nitqin yaranması, anlaşılması və formalaşmasının gedişi zamanı öz diqqətini daha çox şüurun psixi funksiyaların insanların fəaliyyətində və nitq davranışında ifadə vasitələrini də nəzərə almağa çalışır. İkidillilik prosesində bu əlaqələr öz əksini tapır. Ümumiyyətlə, dilçilikdə əsas psixolinqvistik tədqiqat metodları təhlil edilir. Bunlara isə eksperimental metod neyrolinqvistik metodlar uşaq nitqinin müşahidə və qeydiyyat və nitq pozuntularının təhlili mühüm yer tutur. İki dildə danışan insanlarda bu metodlar öz əksini tapmışdır. İnsanların dünyanı qavrama tərzi onların danışdığı dildən çox asılıdır. Düşüncə dili müəyyənləşdirmir, əksinə düşüncə dilin

yaranmasına səbəb olur. İki dildə danışan insanlarda leksik yaddaş, semantik yaddaş və qısamüddətli işlək yaddaş əsas rol oynayır. İkidillilik zamanı bu əsas yer tutur. İkidillilik bəzən müşahidə edilən beyin zədələnməsi və qavrayış problemləri qeyd etmək olar.

Bunlar da bəzən psixolinqvistika yaranan problemlər kimi qeyd olunur. Fikrin formalaşmasından başlayaraq söz seçimi, qrammatik quruluş və səsə çevrilmə mərhələlərinə diqqət yetirmək lazımdır (3 səh.21). Dilin (ikinci) öyrənilməsində mühüm mərhələlər vardır ki, onların psixolinqvistikada rolu əsas yer tutur. İkidillilikdə və çoxdillilikdə beyin fəaliyyətinin rolu psixolinqvistikada əsaslı şəkildə qeyd edilir. Psixologiya nitqin yaranmasında formalaşmasında əsas oynasa da, psixolinqvistika daha gənc bir elmdir. Elm sahəsinin genişlənməsi sayəsində psixolinqvistikanın müxtəlif sahələri də meydana gəlmişdir. Bunlardan ümumi psixolinqvistika, xüsusi psixolinqvistika, sosial psixolinqvistika və yaş psixolinqvistikasını göstərmək olar. Müasir psixolinqvistika və neyrolinqvistika elmləri göstərir ki, ikidillilik yalnız ünsiyyət bacarığı deyil, həm də beyin fəaliyyətinin əhəmiyyətli dərəcədə dəyişdirən və inkişaf etdirən bir prosesdir. İkidilli insan danışarkən beyin hər iki dili eyni zamanda "aktiv vəziyyətdə" saxlayır. Bu zaman beyin hədəf dili seçir və digər dili bloklayır.

Məntiqi düşünmədə - iki dil arasında əlaqə qurmaq beyin üçün "mental məşq" kimidir. Yaddaşın güclənməsi zamanı hər iki dilin söz ehtiyatı və qaydaları saxlayan yaddaş aktiv olur. Problemlərin həlli bacarığı zamanı beyin daim iki dildən birini seçməyə öyrəşdiyi üçün qərarvermə mexanizmi də möhkəmlənir. Dil və nitq beyin mərkəzinin solyarımkürəsində yerləşir. Burada hər iki dilin sintaktik və qrammatik emalı bu hissədə baş verir (4 səh. 6-7). Məlumdur ki, psixolinqvistika dilin beyindən necə formalaşması, işlənməsi və formalaşması ilə məşğul olan bir elmdir. Bu baxımdan da, ikidillilik həm dilin idrak prosesində təsirləri, həm də beyin fəaliyyətinin təşkili baxımından xüsusi əhəmiyyət kəsb edir.

Buna görə də ikidilliliyin psixolinqvistikada tutduğu mövqe çox mühüm və çoxşaxəli bir tədqiqat sahəsidir. Ona görə də ikidillilik linqvistikanın əsas tədqiqat sahəsi kimi qiymətləndirilir. Bu da insanın iki və ya daha çox dil necə öyrəndiyini yadda saxladığını və istifadə etdiyini araşdırır. Bu sahə həmçinin dillər arasında keçid, interferensiya (qarışıqlıq) və kod dəyişmələr (code -sivitching) kimi hadisələri öyrənir. Psixolinqvistik araşdırmalar göstərir ki, ikidilli insanlar daha güclü idrak çevikliyinə (cognitive - flexibility) malik olurlar. Onlara diqqətlə nəzarət, problemlərin həlli, məlumatların ötürülməsi kimi funksiyalarda daha fəal olurlar. Həmçinin iki dil arasında daim seçim etdiklərinə görə, beyinlərində icraedici funksiyalar (exerkutive finctions) daha çox inkişaf edir. Psixolinqvistika sahəsi insanların daha maraqlı məlumatlar əldə etməsinə zəmin yaradır. Beləliklə, ikidillilik təkcə sosial və mədəni üstünlük deyil, həm də beyin üçün təbii "idman" formasıdır. O neyron əlaqələri möhkəmləndirir, idrak çevikliyini artırır. Bu da, iki və ya daha

çox dilin mənimsənilməsi beynin fəaliyyətini optimallaşdıran, düşünmə və öyrənmə qabiliyyətini artıran çox dəyərli bir amildir.

**Ass. prof. Gadashova Aybeniz**

## PSYCHOLINGUISTIC FOUNDATIONS OF PROCESS OF BILINGUALISM DEVELOPMENT IN LINGUISTICS

### S U M M A R Y

**Keywords:** *psycholinguistics, language, perception, speech, production, thought and language, language acquisition*

Psycholinguistics is a science formed at the intersection of linguistics and psychology. It studies the mechanisms of language perception, storage, production, and use in the human brain. This field explants processes such as speech perception and production, language acquisition, and the relationship between language and memory. It also examines the stages of language development in children, the interactions between language and memory and language. It also studies speech disorders that caused by brain damage. Psychologists of divers orientations also consider the unconscious mind. Psychologists employ empirical methods to intercostal and correlational relationships between psychological variables. The psycholinguistic foundation of bilingualism are determined by linguistics. While psychological knowledge is offer applied to the assessment and treatment of mental health problems. Many scientific an a wild range of topics related the mental processes and behavior. Research in this area plays au important role in language teaching, speech the rapy and artificial intelligence technologies.

**Доцент Гадашова Айбениз**

## ПСИХОЛИНГВИСТИЧЕСКИЕ ОСНОВЫ ПРОЦЕССА РАЗВИТИЯ ДВУХЯЗЫЧИЯ В ЛИНГВИСТИКА

### Р Е З Ю М Е

**Ключевые слова:** *психолингвистика, восприятие язык, мышление и речи, двуязычие, разговорный речь*

Психолингвистика – это наука с формировавшаяся на стыке лингвистики и психологии. Она изучает механизмы восприятия, хранения, порождения и использования языка в человеческом мозге. Данная область объясняет процессы восприятия и производства речи, усвоения языка и связи между языком и памятью. Психолингвистические основы двуязнаия определяются лингвистам. Как прикладная область знаний – формировать рекомендации совершенствованию профессии профессиональной деятельности

и обыденной жизни людей. Психология изучает закономерности психический деятельности для того, чтобы правильнее понимать человека и тем самым умело воздействовать на него. Поэтому значение психолингвистика велико во всех визах практической деятельности. Психология помогает человеку разобраться в собственной психической жизни, понят, самого себя, осознать свои недостатки. И также билингвизм – это способность человека использовать два языка в различных коммуникативных ситуациях. В психолингвистике билингвизм рассматривается как сложный когнитивный и психический процесс, связанный с восприятием, хранением и производством речевых единиц на двух языках. Психолингвистические исследования показывают, что блина вы обладают рядом когнитивных преимуществ.

## ƏDƏBİYYAT

1. Həsənov F. Dil və şəxsiyyət psixolinqvistik yanaşma. Bakı, Elm 2017;
2.Viqotsk L. Düşüncə və nitq. Bakı, Elm və təhsil 2012;
3. Выготский Л.С. Мышление и речь. Москва Педагогика;
4. Rinker The language instinct. New York Harper Colins.

**Rəyçi: prof. Z.Ş.Məmmədova**